# Nümunəvi kitabxana

***Respublikamızın çox bölgələrində olmuşam. Baş çəkdiyim mədəni-maarif müəssisələrindən öz gözəl işi ilə fərqlənənlər də görmüşəm, passiv fəaliyyətləri ilə seçilənlər də. Amma nə danım, Balakəndə şahidi olduqlarım bunların heç birinə bənzəmir. Söhbət A.Şaiq adına Balakən uşaq kitabxanasından gedir.***

Musahibimiz kitabxananın direktoru Nazilə Rüstəmovadır. 1970-ci ildə anadan olub. 1990-cı ildə mədəni-maarif texnikumunu bitirib. MKS-də kitabxanaçı vəzifəsində çalışıb. 2002-ci ildən uşaq kitabxanasının direktorudur.

- Kitabxanamızın 11 min nüsxədən artıq kitab fondu var, - deyə Nazilə xanım kollektivin fəaliyyətindən söhbət açır. Oxucularımızın sayı 745 nəfərdir. Ötən müddət ərzində onlara 9000-dək ədəbiyyat verilmişdir. Bizi fərəhləndirən odur ki, son vaxtlar kitabxanamızın latın qrafikalı ədəbiyyatla zənginləşdirilməsi üçün mühüm addımlar atılır. Yeni aldığımız latın qrafikalı ədəbiyyatın 1647 nüsxəsi möhtərəm prezidentimizin hədiyyəsidir.

Kitabxananın direktor müavini Səkinə xanımla da oxucularımızı tanış etmək istərdik.

Səkinə Zeynalabdin qızı Əsgərova BDU-nun kitabxanaçılıq fakültəsini bitirib. 33 ildir ki, kitabxana sahəsində çalışır. Dərin savadı və dünyagörüşü ilə fərqlənir. Səkinə xanımın dediklərindən:

- Kitabxanamızda müxtəlif tədbirlər keçirilir. Buraya biz hətta bağçaları da cəlb edirik. Onları səhnəcik və musiqi ilə əyləndirir, hərtərəfli inkişafları üçün rəngarəng forma və metodlardan istifadə edirik. Şəkilli jurnalların nümayişi, ekskursiyaların təşkili, muzey, park və təbiət qoynunda gəzinti və s. bu qəbildəndir. Yay tətili günlərində işimiz daha çox oldu. Uşaqlarla «Nə oxumalı?», «Balalara məsləhət», «Körpə təbəssümünüzlə qoy bəzənsin yer kürəsi», «Nəsillərin görüşü», «Bir kərə yüksələn bayraq...», «Ana dili» və s. başlıq altında tədbirlər keçirdik.

Bundan başqa biz latın qrafikalı ədəbiyyatın işlənməsi və təbliği ilə bağlı məktəb kitabxanalarında seminar-müşavirələr təşkil edirik. Bu və digər əlamətdar tarixi günlərin keçirilməsində əməkdaşlarımızdan Rəna Dibirova və Gülnar Hüseynova əllərindən gələni əsirgəmirlər.

MKS-in direktoru İradə xanım Osmanova söhbətə qoşulur:

- Mən hörmətli nazirimiz Əbülfəs Qarayevə rayonumuzun bütün mədəniyyət işçiləri, xüsusilə kitabxanaçıları adından dərin təşəkkür və minnətdarlığımı bildirmək istəyirəm. Məhz nazirliyin yaxından köməyi ilə kitabxana bu şəkilə düşüb. Bunun üçün 60 min manat vəsait ayrıldı. Kitabxana oxu zalı, avtomat-kompyuter zalı, kitabsaxlama və s. guşələrdən ibarətdir. Yüksək zövqlə təmirdən sonra F.Köçərli adına uşaq kitabxanasının 3 nəfər əməkdaşı burada oldular. Bizə dəyərli məsləhətlər verdilər. Bu kömək üçün onlara təşəkkür edirik...

*Bu qədər. Əlavə sualı olan, işini yüksək səviyyədə qurmaq istəyən varsa tövsiyə edirik ki, Balakənə getsin. Həm gözəl işin, həm də yüksək qonaqpərvərliyin şahidi olsunlar. Axı dünya gör-götür dünyasıdır.*

**E.HƏSƏNQIZI**



